*Biz iqtisadi inkişafa ona görə nail olmaq istəyirik ki, sosial məsələləri daha genişmiqyaslı həll edək və vətəndaşlarımız daha da yaxşı yaşasınlar. Ağır vəziyyətdə yaşayan vətəndaşlara biz imkan daxilində kömək göstəririk. Biz evini, əşyini, torpağını itirmiş vətəndaşlar üçün şəhərciklər salırıq, evlər tikirik, onlara mənzillər veririk. Bu gün hələ də öz maddi imkanlarını lazımi səviyyədə təmin edə bilməyən vətəndaşlara dövlət tərəfindən ünvanlı sosial yardım göstərilir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Həssas kateqoriyalı insanlar daim dövlətin diqqət mərkəzindədir

**Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu dövlət siyasəti onun layiqli davamçısı İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini də müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.**

Bu il dekabrın 24-də Prezident İlham Əliyevin növbəti sərəncamı əhali tərəfindən böyük razılıqla qarşılandı. Belə ki, “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Prezident İlham Əliyev sərəncam imzaladı. Sərəncama əsasən, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.18.3-cü yarımbəndində göstərilən vəsaitin 20 610 000 (iyirmi milyon altı yüz on min) manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılsın. Prezidentin bu sərəncamı bir daha göstərdi ki, Azərbaycanda şəhid ailələrinə, əlillərə qayğı dövlətimizin diqqət mərkəzində qalmaqda davam edir.

Ümumiyyətlə, bu sahədən danışarkən Azərbaycanda həyata keçirilən dövlət siyasətində sosial sahənin prioritet olaraq qaldığını, bu sahədə nəzərəçarpan işlər görüldüyünü qeyd etmək vacibdir. Azərbaycanda əhalinin sosial həyat şəraitinin, rifahının yüksəlməsi, xüsusi ehtiyacı olan təbəqələrin yaşayış durumunun yaxşılaşdırılması üçün sistemli işlər görülməkdədir. Burada əhalinin həssas kateqoriyalarının, xüsusilə şəhid ailələrinin, müharibə əlillərinin sosial-rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması əsas yer tutur. Məhz bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan dünyada təkcə ən islahatçı, dinamik inkişaf edən, sabit, təhlükəsiz ölkə deyil, eyni zamanda, sosial dövlət kimi də tanınır.

Dünyada davam edən böhran dalğasına, milli valyutaların kəskin ucuzlaşmasına baxmayaraq, ölkəmizdə büdcədə sosial sfera üçün nəzərdə tutulmuş xərclər azaldılmadı. Əksinə, büdcəyə sosial istiqamətdə yeni ayırmalar daxil edildi. Bu isə o deməkdir ki, dövlət siyasətinin bütün istiqamətlərində və sahələrində mərkəzdə məhz Azərbaycan vətəndaşı dayanır.



Görülmüş işlərin statistikasına nəzər saldıqda, ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığı göz qabağındadır. Prezident İlham Əliyevin atdığı önəmli addımlardan biri, heç şübhəsiz ki, 2018-ci il 11 aprel tarixində keçirilən prezident seçkilərində növbəti qələbəsini qazandıqdan sonra imzaladığı ilk fərmanın – 2018-ci il 19 aprel tarixli fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması idi. Həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən oldu.

2019-cu il 28 yanvar tarixli fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Dövlət başçısı çıxışında bildirmişdir ki, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir. Beləliklə, hər iki fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi (bunun üçün 135 milyon manat vəsait ayrılıb) nəzərdə tutulub. Ötən ilin noyabrın əvvəllərindən artıq 6200-ə yaxın şəhidin vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. Yeni il ərzində digər vərəsələr də birdəfəlik ödəmə ilə təmin ediləcəklər.

2019-cu il yanvarın 28-də imzalanmış sərəncamla şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrıldı. Dövlət başçısının qayğısı ilə əhatə olunan həssas qruplara mənzillərin, fərdi evlərin verilməsi məsələsi də hər zaman gündəmdə olmuşdur. Bütövlükdə, 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə 475 mənzil və fərdi ev verilib. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998-2018-ci illər ərzində 6155 avtomobillə təmin edilib. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur.

2019-cu ilin əvvəlindən bəri isə 700 mənzil və fərdi ev verilib. İlin sonunadək daha 234 mənzil və fərdi evin bu zümrədən olan insanlara verilməsi nəzərdə tutulur.

Dövlət başçısının apardığı uğurlu sosial siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə əsas inkişaf istiqamətlərindən hesab olunur. Prezident İlham Əliyev dekabrın 24-də şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillərin, avtomobillərin təqdim olunması mərasimindəki çıxışında dedi: “Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban verməşdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək.” Ölkə rəhbəri gələn illə də bağlı bu sahədə atılacaq addımları qeyd edərək həssas qruplara mənsub əhalini sevindirdi. Prezident əlavə etdi ki, gələn il, ən azı, 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni bu ildən iki dəfə çox.

Azərbaycan dövlətinin sosial siyasətinə toxunarkən cənab Prezident bildirdi ki, ölkəmiz sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır: “İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Eyni zamanda, işğaldan əziyyət çəkən soydaşlarımız, məcburi köçkünlər üçün bu il 5 min mənzil və fərdi ev təqdim olunub. Beləliklə, bu kateqoriyadan olan vətəndaşlara bu il 6 minə yaxın ev və mənzil verilib. Bu, o deməkdir ki, biz bir şəhər boyda evlər tikmişik və layiq olan vətəndaşlara təqdim etmişik. Mən ikinci ölkə tanımıram ki, bu sahəyə bu qədər diqqət ayırsın. Bu siyasət davam etdiriləcək.”

Dövlət başçısı əvvəlki çıxışlarında da bildirib ki, bir nəfər də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin. Görünən odur ki, proses bu istiqamətdə uğurla aparılır. Dövlətimizin həssas kateqoriyadan olan insanlarımıza bu səviyyədə diqqət ayırması bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır.

Bu gün vətəndaşlarımız arxalarında güclü Azərbaycan dövlətinin dayandığını dərk edirlər. Xüsusilə, həssas kateqoriyadan olan insanlar dövlət başçısının apardığı bu humanist siyasətin uğurlu nəticələrini gündəlik həyatlarında hiss edirlər. Bu baxımdan, vətəndaşlarımızın dövlətimizə inamı və etimadı ən yüksək səviyyədədir və bu inamı heç bir qüvvə sarsıda bilməz.

*Anar TURAN,*
*“Xalq qəzeti”*